## *Üzeyir Hacıbəyov əlyazmaları:*

# MİLLİ MUSİQİMİZİN SƏNƏDLİ TARİXİ

Azərbaycan musiqi tarixinin möhtəşəm simalarından olan Üzeyir Hacıbəyov XX əsrdə milli musiqi məktəbinin banisi, bəstəkar, alim, pedaqoq və maarifçi kimi dövrünə damğa vuran nadir şəxsiyyətlərdəndir. Üzeyir Hacıbəyov 1885-ci ildə Ağcabədidə anadan olmuşdur. Atası Əbdülhüseyin Hacıbəyov, anası Şirinbəyim xanım, ailədə üç qardaş və iki bacı vardı. Hacıbəyovlar ailəsi Üzeyir çox kiçik ikən Şuşa şəhərinə köçdü və onun uşaqlığı bu şəhərdə keçmişdir. Gələcəyin dahi bəstəkarının atası məşhur Azərbaycan şairəsi Xurşudbanu Natavanın şəxsi katibi idi, bu da bəstəkarın təhsilinə, tərbiyəsinə çox böyük təsir etmişdir. Şairə ilə tanışlıq Üzeyir üçün ən yaxşı musiqi məclislərinə yol açmış və çox gənc ikən muğam ifaçılığı dərslərini almışdır. Mədrəsədə təhsilini və iki illik rus-tatar məktəbini bitirdikdən sonra, 1899-1904-cu illərdə Qori şəhərindəki müəllimlər seminariyasında oxumuşdu. Burda o, skripka, violonçel və nəfəs alətlərində ifa etməyi öyrəndi. 1911-ci ildə tam musiqi təhsilini almaq üçün Moskva şəhərinə yollandı. 1914-1918-ci illərdə "Yeni iqbal", "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. 1939-1941-ci illərdə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə yaradılan Azərbaycan Türk Musiqi Məktəbinə (indiki Asəf Zeynallı adına Bakı Musiqi Kolleci) rəhbərlik etmişdir. 1925-ci ildə Azərbaycan Konservatoriyasının prorektoru olmuşdur. 1945-ci ildə Hacıbəyov Azərbaycan SSR EA İncəsənət İnstitutunun direktoru vəzifəsinə keçdi. 1948-ci il noyabrın 23-də vəfat etmişdir.

Üzeyir Hacıbəyovun yaradıcılığı bəstəkar fəaliyyətini, musiqi nəzəriyyəsini, publisistikasını, mədəni-maarif təbliğatını və musiqi pedaqogiyasını əhatə edir. Onun bu çox şaxəli irsi ən dəqiq və qiymətli şəkildə onun əlyazmalarında qorunub saxlanılıb. Hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan bu əlyazmalar təhlil edilməkdə milli musiqimizin sənədli tarixini şəkilləndirən nadir mənbələr kimi çıxış edir. Bu məqalədə Üzeyir Hacıbəyovun əlyazmalarının məzmunu, musiqi tariximizdəki yeri, Azərbaycan musiqi mədəniyyətinin sənədlərdəki izləri eləcə də əlyazmaların kataloqlaşdırılması prosesi aparılır. AMEA Əlyazmalar İnstitutunda saxlanılan Üzeyir bəy Hacıbəyovun əlyazmaları, həmin institutun "Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tətqiqi" şöbəsi tərəfindən araşdırılır və tətqiq edilərək kataloqlaşdırılır. Məsələn:



B-8822505
Üzeyir bəy Hacıbəyov.
O olmasın, bu olsun (komediya)

Avtoqraf əlyazma qara mürəkkəblə nəstəliq xətti ilə ümumi məktəbli dəftərinə türk dilində yazılmışdı. Vərəqlər iplə tikilmiş və möhürlənmişdi. Mətndə bəzi sözlər tərcümə edilərək rus dilində yazılmışdı. Abidə müasir üsulla ardıcıl olaraq səhifələnmişdi. Son vərəqdə əsərin çap edilməsinə izin verilməsi haqqında Nəşriyyat işləri üzrə Tiflis komitəsinin qeyd yazılmış və möhür basılmışdı. Cildi kağıza yapışdırılmış xaki rəngli süni dəridi.

Yazılma yeri: Bakı
Ölçüsü: 18,5x22,5sm
Tarix: h. 1329-1330 m. 1911-ci il

B -943 104
Üzeyir bəy Hacıbəyov
Əsli və Kərəm (opera)
Avtoqraf
Xətti: Təhriri
Məkan: Bakı
Tarix: h.1331 m. 1912 -ci il
Cildi: Xaki rəngli dermantin
Həcm : 34 vərəq
Ölçü: 17,8x21,8 sm

Dəftər rus istehsalı sarı vərəqlərdən ibarətdir . 34 vərəqin 31-ı yazılıdır, səhifələnmə soldan sağa müasir üsulla verilib. 1 ön və 1 son forzası vardır. Solğun qara rənglə yazılıb, bəzi sözlərin altından qırmızı və göy rənglərlə xətt çəkilib.

Üzeyir bəyin əlyazmaları 1908-1944-cü illər arasını əhatə edir. Onlar əsasən aşağıdakı tiplərə ayrılır: Musiqi əsərlərinin partituraları və eskizləri:"Leyli və Məcnun", "Arşın mal alan" və s. Kimi operalara dair orijinal və qaralama nüsxələr; Nəzəri yazılar:"Azərbaycxan xalq musiqisinin əsasları" əsərinin əlyazması, muğamların lad təhlili, xalq musiqisinin sistemli qurulması haqdsa qeydlər;Xalq musiqisi nümunələri: Azərbaycan reqionlarından toplanmış xalq mahnıları və muğam variantları; Pedaqoji və maarifçi materiallar: tələbələr üçün yazılıb redaktə olunmuş dərs materialları,məktublar, məruzə planları. Bu əlyazmalar üç əlifba formasında qorunub: ərəb, latın və kiril. Bu da onlara dövrlərə görə tarix qoymaq üçün dəqiq meyar verir və elmi, tarixi əhəmiyyətli olduğunu göstərir. Hacıbəyovun əlyazmaları onun yaradıcı və tənqidçi düşüncələrinin inşasını, musiqiyə elmi yanaşmasını və sistemli quruculuq ideyasını izah edir. Məsələn, "Azərbaycan xalq musiqisinin əsaları" əsərinin əlyazmasında yer alan marqinallar (yan qeydlər), bəstəkarın muğam strukturunu şərh etmə prosesi baxımından son dərəcə qiymətlidir. Eyni zamanda Üzeyir Hacıbəyovun əlyazmalarında Azərbaycan reqionlarından toplanmş muğam və xalq mahnısı nümunələri musiqi etnoqrafiyası baxımından misilsiz qaynaq rolunu oynayır. O, sadəcə ifa praktikasını deyil, musiqinin elmi-nəzəri təhlilini də əlyazmalarla formalaşdırılmışdır. Üzeyir bəy Hacıbəyovun əlyazmaları milli musiqimizin şifahi dəyildə, yazılı, elmi və arxivləşdirilmiş formasına keçidinin ən əsas sənədli dəlilləridir. O, xalq musiqisinin sistemləşdirmə prosesini əlyazmalar vasitəsilə şəkilləndirmiş, onu ali musiqi məktəblərində tədris olunan elm sahəsinə çevirmişdi. Bütün bu əlyazmalar musiqi tariximizin dokumental qatını yaradan, xalq musiqisinin orijinal ənənələrini qoruyub saxlayan milli kimlik nüvəsidir.

Üzeyir Hacıbəyovun əlyazmaları onun yaradıcılıq və musiqi şəxsiyyətini əks etdirən bədii, elmi və pedaqoji materiallar kimi qiymətlidir. Onlar musiqi tariximizin sənədli yaddaşını formalaşdırır, milli irsimizin qorunması və tədrisi üçün dayaq nöqtəsi kimi çıxış edir.

***Zərifə HAQVERDİYEVA,***
***AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu***
***Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi şöbəsi baş mütəxəssis***